KİVDF

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# BİLƏSUVAR RAYONU: REAL NƏTİCƏLƏR GÖZ QABAĞINDADIR

*Azərbaycanın digər bölgələrində olduğu kimi, Biləsuvar rayonunda da son illər əldə olunmuş iqtisadi göstəricilər yüksək inkişafdan, uğurlardan xəbər verir.*

***Respublikamızda aparılan ardıcıl iqtisadi siyasətin nəticəsidir ki, Biləsuvarda 2015-ci ilin birinci yarısında ümumi məhsul buraxılışının həcmi 106,7 milyon manat olmuşdur. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çoxdur. Altı ayda ümumi məhsul buraxılışının həcmində kənd təsərrüfatının payı 51,5 milyon, ticarətdə 36,2 milyon, tikinti sahəsində 8,0 milyon, sənayedə 9,4 milyon, nəqliyyatda 1,4 milyon, rabitədə 0,2 milyon manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrüü ilə müqayisədə bütün sahələrdə irəliləyiş əldə olunmuşdur.***



Qeyd edək ki, Biləsuvarda əsas kapitala yönələn investisiyalar 8,4 milyon manat, pərakəndə əmtəə dövriyyəsi isə 99,3 milyon manat təşkil etmişdir. Rayonda yerli gəlirlər 8 milyon 29 min manata qarşı 7,7 milyon manat və ya 95,5 faiz yerinə yetirilmişdir. Yerli xərclər isə 8 milyon 29 min manata qarşı 7 milyon manat və ya 86,7 faiz icra edilmişdir. Həmçinin, adambaşına düşən ümumi məhsul buraxılışının həcmi 1082 manat, orta aylıq əməkhaqqı isə 282,5 manat olmuşdur. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən altı ayda rayonda fəaliyyət göstərən 59 sahibkara 664 min manat kredit verilmişdir. Görülmüş işlər nəticəsində 721 yeni iş yeri açılmışdır. Əhalinin sosial rifah halının yaxşılaşması və pul gəlirlərinin artması nəticəsində altı ayda rayonda 73 fərdi ev tikilmişdir.

Həmçinin, rayonda ailə üzvlərinin sayı 6487 nəfər olmaqla 1279 ailə ünvanlı dövlət sosial yardımı almışdır. Rayon üzrə hər bir ailəyə düşən ünvanlı sosial yardımın məbləğı 160 manat təşkil etmişdir.

**2015-ci ildə rayonda tikinti, abadlıq və quruculuq sahəsində xeyli işlər görülmüş, təmir-tikinti və abadlıq işləri aparılmışdır. Ötən il rayonda ümumi şagird tutumu 1310 nəfər olan 3 məktəb üçün yeni binalar inşa olunmuş, 1176 şagird yerlik 1 məktəb isə əsaslı təmir edilmişdir.**

Biləsuvar rayonunda müasir tələblərə cavab verən hər biri 100 və 200 yerlik uşaq bağçalarının tikintiləri başa çatdırılmışdır. Ötən dövr ərzində rayonda əhalinin təbii qazla təmin edilməsi istiqamətində əsaslı işlər görülmüş, Biləsuvar rayon və 21 kənd yaşayış məntəqəsi tam qazlaşdırılmışdır. Bu ildə rayonun Ağayrı, Günəşli və Nərimankənd kəndlərinin qazlaşdırılması işləri başa çatdırılaraq əhaliyə təbii qaz verilmişdir. Hazırda Səmədabad və Yuxarı Ağalı kəndlərinin qazlaşdırılması işləri tam başa çatdırılmışdır və bir neçə gündən sonra bu kəndlərə təbii qaz veriləcəkdir. Bununla da Biləsuvar rayonunda qazlaşma işi, demək olar ki, tam başa çatdırılacaqdır.




Rayonda əhalinin elektrik enerjisi ilə təmin edilməsi və infrastrukturun yenilənməsi istiqamətində son 6 ayda əsaslı işlər görülmüşdür. Rayonun ayrı-ayrı yaşayış məntəqələrində müasir standartlara cavab verən 13 ədəd 0,4 KV-luq yeni transformator quraşdırılaraq ərazisi abadlaşdırılmış, şəhər ərazisində və kəndlərdə 98 elektrik dirəyi yenisi ilə əvəzlənmiş, 10 km uzunluğunda SİP kabel çəkilmişdir. Xırmandalı kəndinin yeni yaşayış massivində əhalini normal elektrik enerjisi ilə təmin etmək məqsədilə 300 ədəd elektrik dirəyi basdırılmış və ərazidə yeni elektrik xətləri çəkilmişdir.

Biləsuvar rayonunun içməli su sisteminin yenidən qurulması istiqamətində işlər başa çatdırılmışdır. Hazırda kanalizasiya sisteminin tikintisi işləri aparılır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuza göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir ki, bu gün rayonun təbii qazla təminatı tam başa çatmaq üzrədir, əhalinin elektrik enerjisi ilə təchizatında əsaslı işlər aparılır, ayrı-ayrı infrastruktur layihələrin icrası davam etdirilir.

**"İDEA" İctimai Birliyi tərəfindən həyata keçirilən "Birinci Ümumrespublika Yaşıllaşdırma Marafonu" çərçivəsində rayonumuzda da ağacəkmə aksiyaları keçirilmişdir.Yüksək səviyyətə təşkil olunan ağacəkmə kompaniyalarında Biləsuvar rayon İcra Hakimiyyəti başda olmaqla, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların kollektivləri, rayon sakinləri iştirak etmişlər. Bu günədək 3500 ədəd çinar və digər ağaclar əkilmiş, əraziyə gübrələr verilərək, suvarma işləri aparılmışdır.**

Son illərdə ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində qəbul olunmuş Dövlət Proqramlarından irəli gələn tədbirlərin yerinə yetirilməsi nəticəsində aqrar bölmədə ümumi məhsul istehsalının həcmi artmış, məhsuldarlıq yüksəlmiş və kənd təsərrüfatında çalışan insanların həyat səviyyəsi xeyli yaxşılaşmışdır. O cümlədən, Biləsuvar rayonunda iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsulları istehsalından gələn gəlirlər təşkil edir.

Məlumdur ki, ölkə prezidentinin 2015-ci ili "Kənd təsərrüfatı ili" elan etməsi ilə aqrar sahədə qarşıya qoyulan təxirəsalınmaz tapşırıq və göstərişlərin yerinə yetirilməsi məqsədilə rayonda kənd təsərüfatının bütün sahələrini əhatə edən kompleks tədbirlər planı hazırlanmış və bu istiqamətdə müvafiq tədbirlərin görülməsinə artıq başlanmışdır.

Belə ki, aqrar sahədə ümumi məhsul istehsalının həcmi 51,5 milyon manat təşkil etmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrünə nisbətən 14,1 faiz çoxdur. 2015-ci ilin məhsulu üçün 2014-cü ilin payızında 22,9 min hektar sahədə dənli bitkilər əkilmişdir ki, bundan 8,2 min hektarını buğda, 14,7 min hektarını isə arpa bitkisi təşkil etmişdir. Əkilmiş taxıl sahələrindən 31,2 min ton buğda və 44,3 min ton arpa məhsulu yığılmışdır. Bu da ötən illə müqayisədə 17,4 faiz çoxdur.

Yazlıq əkinlər üçün 18,9 min hektar əkin aparılmışdır. Torpaq mülkiyyətçilərinin əkin sahələrinin fasiləsiz suvarılmasını təmin etmək məqsədilə 6 ayda 716 km suvarma kanalları, 31,2 km isə kollektor-drenaj şəbəkəsi lildən təmizlənmişdir. Bu dövrdə 44,4 min hektardan çox əkilən sahə suvarılmışdır.

2015-ci ildə rayonda heyvandarlığın inkişafı sahəsində də irəliləyişlər əldə olunmuşdur. Hazırda iribuynuzlu mal-qaranın baş sayı 40,2 min, xırdabuynuzlu mal-qaranın baş sayı isə 138,1 mini ötüb keçmişdir. Bu dövrdə ət istehsalı 2,6 min ton, süd istehsalı 13,8 min ton, yumurta istehsalı 6,6 milyon ədəd olmuşdur. Heyvandarlıq məhsullarının artım dinamikası göstərir ki, rayonda heyvandarlığın inkişafı üçün normal şərait vardır. Biləsuvar rayonu heyvandarlıq məhsullarına olan tələbatını tam ödəyir.

Bakı şəhər əhalisini ucuz və keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin etmək məqsədi ilə təşkil olunan yarmarkalarda Biləsuvar rayonunun fermerləri də yaxından iştirak etmişlər və yarmarkalara 200 tondan çox müxtəlif növ kənd təsərrüfatı məhsulları göndərilmişdir.

2015-ci ilin arxada qalmış birinci yarısında Biləsuvarda təhsil, səhiyyə və mədəniyyət sahəsində də xeyli iş görülmüş, gənclərlə işin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmışdır.

**Ölkə prezidenti cənab İlham Əliyevin, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın Təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərdikləri yüksək qayğı və diqqət rayonumuzda da öz müsbət nəticələrini verməkdədir. Son illər rayonumuzda 13 yeni məktəb tikilmiş, 6 məktəb yüksək səviyyədə əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Hazırda Əsgərabad kənd tam orta məktəbinin əsaslı təmiri və Xırmandalı kənd uşaq bağçası üçün 40 yerlik yeni binanın tikintisi işləri aparılır.**

**Təhsil ocaqlarının informasiya kommunikasiya texnologiyaları ilə təminatı da yaxşılaşdırılmış, məktəblərdə kompyuterlərin sayı 470-ə çatdırılmışdır.**

Builki tədris ilinin sonunda rayonumuzun ümumtəhsil məktəblərini 938 şagird bitirmiş və onlardan 442 nəfəri ali məktəblərə qəbul olmaq üçün sənədlərini vermişlər.

Bütün bunlarla yanaşı, ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi, təhsil islahatlarının uğurla həyata keçirilməsi istiqamətində rayon Təhsil şöbəsinin rəhbərliyi öz fəaliyyətini daha da gücləndirilməlidir. Təhsil şöbəsi məktəb rəhbərlərinə və pedaqoji kollektivlərə qarşı tələbkarlığı artırmalı, konkret tədbirlər həyata keçirməlidir.

Dövlət siyasətinin əsas istiqamətlərindən olan əhalinin sağlamlığının təmin olunması, onlara yüksək tibbi xidmət göstərilməsi istiqamətində görülən işlər Biləsuvar rayonundan da yan keçməmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əhalinin tibbi müayinədən keçirilməsi ilə bağlı tapşırıq və tövsiyələrinə uyğun olaraq rayonda 2015-ci ilin fevral ayından etibarən əhalinin yenidən tibbi müayinədən keçirilməsi aksiyasına başlanılmışdır.

Rayonda əhalinin asudə vaxtlarının səmərəli təşkilində mədəni-maarif müəssisələrinin üzərinə də mühüm vəzifələr düşür. Mədəniyyət evləri, klub və kitabxanalar əhaliyə xidmət mədəniyyətini yüksəltməyə çalışırlar.

**Gənclərə qayğı və diqqət ölkə prezidenti cənab İlham Əliyevin ən çox diqqət yetirdiyi əsas məsələlərdəndir. Rayonda əhalinin təxminən üçdə bir hissəsini təşkil edən gənc nəsil hərtərəfli qayğı ilə əhatə olunmuşdur. Gənclərin ideya-siyasi, hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi sahəsində müntəzəm olaraq keçirilən məqsədyönlü tədbirlər müsbət nəticələr verir. Gənclərimiz ölkə prezidenti ətrafında daim sıx birlik nümayiş etdirirlər. 2015-ci ilin əvvəlində biləsuvarlı gənclər rayonumuzda bir sıra respublika və rayon əhəmiyyətli tədbirlərə ev sahibliyi etməklə bir daha təsdiq etdilər ki, bu gün savadlı, intellektual səviyyəli, vətənpərvər gənclər yetişir. Bir çox gənclərimiz ayrı-ayrı sahələrə bacarıqla rəhbərlik edirlər.**

**Biləsuvar rayonunda gənc idmançılar müxtəlif respublika və zona turnirlərində uğurlu çıxışlar etmişlər. Müasir Olimpiya İdman Kompleksindən, 3000 yerlik stadiondan, 150 sadə idman qurğusundan səmərəli istifadə edən idmançılarımız öz nailiyyətlərini ilbəil möhkəmləndirilər. Hazırda rayonumuzda 5500 nəfərdən çox gənc idmanın müəəəxtəlif növləri ilə müntəzəm məşğul olur.**

Əminliklə demək olar ki, Biləsuvar rayonu da respublikamızın digər rayonları kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında daima inkişaf edəcək və böyük uğurlara imza atacaqdır.

*Nailə CABBAROVA*